Ədalət.-2022.- 27 avqust.- S.8.

# Ad günün mübarək, Müşfiq bala!

*(Həmkarım və dostum Əjdər müəllimin əziz oğlu Müşfiqin unudulmaz xatirəsinə ithaf edirəm)*

**Elegiya**

***Mən aşiq Müşfiq dağı,***
***Dolan, gəl Müşfiq dağı***
***Sağalsa da hər yara -***
***Sağalmaz Müşfiq dağı.***

Çox ağır olub bu dərd səni dünyalar qədər istəyən atan Əjdər müəllimə, anan Çiçək xanıma, qardaşın Əyyuba, bacıların Röyalə və Jalə müəllimlərə.Bir də bütün Müşfiqsevənlərə. Əzizimiz, gözümüzün işığı, evlərimizin yaraşığı, hamımızın sevimlisi Müşfiq bala. Bütün doğmaların sentyabrn 4-də 20 yaşını sənsiz qeyd edib səni yad edəcəklər.

Nə deyək fələyin belə sərt, amansız hökmünə?! Nə deyək fələyin belə alın yazısına?! Baxmayaraq ki, sən artıq 8 aydır ki, həyatını dəyişibsən, bir an belə sənin yoxluğuna inana bilmirik. Nə atan, nə anan, nə qardaşın, nə bacıların, nə də səni sevən bütün qohumların və dostların! Elə bilirik k, sən səkkiz aydan bir az çoxdur ki, harasa-uzaqlara gedibsən və günlərin bir günü sənə xüsusi yaraşıq verən gülüşünlə qapını açıb içəri girəcəksən. Həmişəki şux təbiətinlə, şirin danışığınla, şən gülüşün və zarafatınla yenə də bizi sevindirəcəksən... Axı hardan əsdi bu külək? Hardan yağdı bu qar Əjdər müəllimin qapısına, İlahi?

2008-ci ildə Quba rayon Suxtakələ kənd ümumi orta məktəbində birinci sinifə getmişdin. Məktəb vaxtlarından hərbiyə böyük marağın vardı. Böyüyəndə ən böyük arzularından biri hərbiçi olmaq idi. Nəhayət, məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Kollecin fiziki tərbiyə müəllimliyi ixtisası üzrə birinci kursa daxil oldun. 1 oktyabr 2020-ci ildə müharibə şəraitində hərbi xidmətə yollandın. Valideynlərlə danışanda tez-tez hərbi xidməti başa vurduqdan sonra orda qalıb hərbiçi olacağından bəhs edirdin. Daim Vətənin keşinində durmaq eşqiylə yanırdın, Müşfiq! Və 21 dekabr 2021-ci ildə komandirin döyüş təyinatı ilə bağlı tapşırığını icra edərkən qəhrəmancasına şəhadətə yüksəldin.Sənə ölümündən bir ay sonra şəhid statusu verildi. Çox sevdiyin torpağ uğrunda şərəfi bildiyin bayrağa büküldün, Sən hər zaman bayrağı, vətəni qorudun. Sonuncu nəfəsini də torpağa əmanət etdin. 22 dekabr 2021-ci ildə böyüyüb boya-



başa çatdığın doğma kəndində dəfn edildin.

Sənin xidmət etdiyin hərbi hissənin komandirləri, əskərlik yoldaşların sənin üçün darıxacaqlar.Axı sən doğma Vətənə çox layiqli qulluq etmişdin. Sən əskərlikdə olanda doğmaların tez-tez komandirlərindən xoş sözlərlə dolu təşəkkür məktubları alırdılar. Onlar səni tərifləyir və istəyirdilər ki, Vətənə borcunu şərəflə ödəyəndən sonra yenidən Azərbaycan ordusuna xidmətə qayıdacaqsan. Çünki, sən çox çevik, cəsur olmaqla, həm də idmançı idin.Hər il sənin ad günün gələndə doğmalarımızın qaysağı yenidən qopacaq və bu yara hamını yandırıb-yaxacaq. Artıq bu səkkiz ayda atan Əjdərin, anan Çiçəyin üzləri gülsə də ürəkləri gülmür.

***Ağacda xəzəl ağlar,***
***Dibində gözəl ağlar,***
***Oğlu ölən analar***
***Sərgərdan gəzər, ağlar.***

Unudulmaz Müşfiq balamız! Bu dağ, bu göynərti bil ki, heç vaxt sağalmayacaq.Bu dərd hamımızın ürəyində bir xal salıb. Sağalmaz bir xal...

Deyirlər ki, həyatdan nakam gedənlərə yer də, göy də ağlayır.Hər il o müdhiş qışın ilk günü yaxınlaşdıqca təbiət də ağlayacaq, sızlayacaq bizimlə birgə.

Hər kəs bir ömür yaşayır bu dünyada.Göz qırpımı xatırladan bir ömür. Amma kim və necə yaşayır? Bax bu sualdır hələ, bala! Doğma vətən yolunda , torpaq yolunda canını fəda etmək ölüm deyil, vallah. Bu ölümsüzlükdür, Bu müqəddəsliyin əlçatmaz zirvəsinə ucalmaqdır.

***Şəhid qəbirlərimiz,***
***Yenilməz əsgərlərimiz,***
***Şəhid başdaşlarıdır***
***Ən iti xəncərimiz.***

Əziz Müşfiq bala! Mənim bu yazım sənə bir məktubdur.İstədim sevimli "Ədalət" qəzeti vasitəsilə sənə bu məktubu göndərəm. Və mənim bu elegiyamı minlərlə gənc oxuduqca, sənin ruhun da bu sətirləri eşidəcək.Axı mən sənin ruhunla tez- tez danışıram elə bu sətirləri yazdıqca da sənin ruhunla danışıb, səni 20 yaşın tamam olması münasibətilə təbrik edirəm. Bilirəm ki, sən də məni eşidirsən. Axı sən bizim üçün həmişə sağsan, Müşfiq! Ad günün mübarək əziz balamız!

***Bu yurdun hər daşında***
***Payızında qışında,***
***Müşfiqimiz yaşayır,***
***Xalqının yaddaşında.***

**Şixəmməd Seyidməmmədov**
**ADPU Quba filialının "Təbiət fənləri və onun tədrisi metodikası" kafedrasının baş müəllimi. AYB və AJB-nin üzvü**